DOI: https://doi.org/10.36719/2706-6185/25/63-67

Sevinc Hüseynova
AMEA Şəki Regional Elmi Mərkəzi
elvin_qarayev_1993@mail.ru
ORCİD-0000-0002-5088-3302

İRADİ EMOSİONAL QABİLİYYƏT. MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİ. MÜƏLLİMİN PEDOQOJİ FƏALİYYƏTİ, QABİLİYYƏTİ VƏ ONA VERİLƏN TƏLƏBLƏR

Xülasə

Məqalədə əsas pedaqoji anlayışlar olan, müəllim – şagird münasibətlərinin formalaşmasında mühüm rol oynayan qabiliyyət, akademik və didaktik qabiliyyətlərin fərqi konstruktiv qabiliyyətin özəllikləri haqqında məlumat verilmişdir. Həmçinin pedaqoji fəaliyyətin strukturu, müəllimlərdə vacib olan müşahidəçilik, diqqətlilik, təmkinlik, ünsiyyətlilik və b. vacib bacarıqlar haqqında məlumat verilmişdir.

Açar sözlər: *təhsil, tərbiyə, qabiliyyət, ünsiyyət, konstruktiv, təlim*

Sevinj Huseynova
ANAS Sheki Regional Scientific Center
elvin_garayev_1993@mail.ru
ORCID-0000-0002-5088-3302

Voluntary emotional capacity. Teacher-student relationships. Teacher's pedagogical activity, ability and requirements made him

Abstract

The difference between the ability, academic and didactic abilities, which are the main pedagogical concepts in the article and play an important role in the formation of teacher-student relations. Information about the features of constructive ability is given. Also, the structure of pedagogical activity, important skills of observation, attentiveness, restraint, sociability, etc., which are important for teachers, were reported.

Keywords: *education, upbringing, ability, communication, constructive, training*

Giriş

Bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsəd Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".

Ümummilli Lider Heydər Əliyev

Müstəqilliyimizin və dövlətimizin mühüm şərtlərindən biri mükəmməl təhsil sisteminə malik olmalıdır. Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi yaradıcı və tənqidi düşünməyi bacaran, fəal şəxsiyyət yetişdirməkdir. İlk növbədə müəllim bacarıqlı, işgüzar, ixtisasını dərindən bilən, müəllimlik adını müqəddəs tutan, ideyaca saf, mənəviyyatca pak, özünə və şagirdlərinə qarşı tələbkar, sənətinə ürəkdən bağlı keyfiyyətləri özündə cəmləşdirməlidir. Təlimdə yaxşı nəticələr əldə olunması üçün psixoloji xüsusiyyətləri dərindən bilmək vacibdir. Müəllim bütün hallarda, xüsusən "müəllim – şagird" münasibətlərinin qurulmasında pedaqoji taktı – nəzakəti, onun davranışına verilən etik tələbləri gözləməli, şagirdlərin şərəf və ləyaqətinə hörmət bəsləməli, onlara münasibətdə ədəblə davranmalıdır (Mərdanov, 2009).

Əsas. İş prosesində müəllim – şagird münasibətlərinin düzgün qurulması, şagirdlərin təhsilə marağının artmasında, tədris olunan fənlərin sevdirilməsində mühüm əhəmiyyət kəsb edir. Müəllim və şagird arasında qarşılıqlı hörmət olmalıdır ki, müəllim şagirdə sevgi, məhəbbətlə və eyni zamanda ciddi yanaşmalıdır. Müəllim şagirdi bir şəxsiyyət kimi görməli, onun mənliyinə, şəxsiyyətinə toxunan söz deməməli, hərəkət etməməlidir. Nə qədər sözə baxmayan, nadinc şagird olsa belə, müəllim özünün pedaqoji metodlarından istifadə edib, xoş, isti münasibət yaratmalıdır. Pedaqoji prosesdə müəllimin pedaqoji mərifəti daha çox müəllim – şagird münasibətlərində özünü göstərir (Yakimanskaya, 1979: 69-84). Müəllimin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir. Müəllimin pedaqoji mərifəti dedikdə aşğıdakılar xarakterizə edilir:

Müşahidəçilik; diqqətlilik; hörmət və tələbkarlıq, qayğıkeşlik, inam; ədalətlilik; səbrlilik; təmkinlik; şərəf və ləyaqəti qorumaq, gülərüz, mehriban ünsiyyətlilik, xoş rəftar, və.s.

Pedaqoji fəaliyyət mürəkkəb xüsusiyyətlərə malikdir. Onlardan əsası müəllimin pedaqoji fəaliyyətidir (Əlizadə, 1998).

- Müəllimlik kütləvi peşədir. Müəllimlik kütləvi peşə olsa da yadda qalan ən yaxşı müəllimlər olur. Çünki nəsilləri öyrətmək, tərbiyə etmək çox vacibdir və bu hamıya lazımdır.
- Müəllimlik məsuliyyətli peşədir. Çünki müəllim insanın təlim və tərbiyəsi ilə məşğul olur, şüurunu formalaşdırır və bu işdə səhvə yol vermək olmaz. Müəllimlik peşəsinin yaradıcı olması onun mürəkkəbliyini sübut edən amildir (Makhmutov, 1972).

Pedaqoji qabiliyyətləri şərti olaraq əsasən üç qrupda birləşdirmək olar:

Şəxsi qabiliyyətlər: Şəxsi; didaktik; təşkilati

1. Şəxsi pedaqoji qabiliyyətlər dedikdə adətən, şəxsiyyətin xarakterik əlamət və keyfiyyətləri ilə bağlı olan qabliyyətlər nəzərdə tutulur. Müəllim-şagird münasibətlərində səbirlilik və təmkinlilik qabiliyyəti əsas götürülür. Ünsiyyət və münasibətlər zamanı və müəllim səbr və təmkinlə davranmalı olur, uşaqlara diqqət və səbrlə qulaq asmalıdır, xüsusilə münaqişələr zamanı təmkinlik göstərməli, özünü ələ ala bilməlidir. Müəllim şagirdlərlə münasibətində həmişə nikbin olmalıdır.

2. Didaktik qabiliyyətlər isə müəllimin proqram materialını şagirdlərə çatdıra bilmək, material və ya problemi aydın və anlaşıqlı şəkildə şagirdlərə təqdim etmək, fənnə qarşı maraq oyatmaq, şagirdlərdə fəal müstəqil fikir yarada bilmək qabiliyyətindən ibarətdir. Buraya konkret olaraq müəllimin izahını, şərh edə bilmək qabiliyyətini, metodiki qabiliyyətlərini aid etmək olar.

3. Təşkilati, kommunikativ və konstruktiv qabiliyyətlər. Müəllimin təşkilatçılıq funksiyası, ünsiyyət və münasibəti, ümumi pedaqoji, psixoloji hazırlığı ilə bağlıdır (Hüseynzadə, 1997).

Demək olarki cəmiyyətin, millətin gələcəyi müəllimin əlindədir. Öz işinin öhdəsindən uğurla gəlmək üçün müəllim əsl mənada şəxsiyyət olmalı, özündə müsbət keyfiyyətlər formalaşdırmalıdır.

❖ ***Akademik qabiliyyət*** *– geniş və dərin biliyə malik olmaqda, elmin son nailiyyətlərini öyrənməkdə və şagirdlərə çatdırmaqda ifadə olunur.*

❖ ***Didaktik qabiliyyət*** *– bilikləri öyrətmə bacarığında, pedaqoji-metodik ustalığa yiyələnməkdə özünü göstərir.*

Ünsiyyət (kommunikativ) qabiliyyəti – uşaqlarla, öz həmkarları və valideynlərlə düzgün ünsiyyət yaratmaqda, demokratik ünsiyyət üslubunda, hər bir uşağa fərdi yanaşma bacarığında ifadə olunur (Ağayev).

❖***Konstruktiv qabiliyyət –*** *özünün və uşaqların (kollektivin) fəaliyyətini düzgün planlaşdırmaqda, çətinlikləri əvvəlcədən duyub, onları aradan qaldırmağa hazır olmaqda ifadə olunur.*

❖ ***İradi – emosional qabiliyyət*** *– müəllimin özünü, hisslərini düzgün idarə etməkdə, mülayimlik və ciddiliyi uzlaşdırmaqda, səbirli olmaqda ifadə olunur.*

Gənc nəslin tərbiyəsinə yönələn fəaliyyət pedaqoji fəaliyyət deməkdir. Başqa sözlə desək, təlim, tərbiyə, inkişaf prosesinin həyata keçirilməsinə, o cümlədən şagird şəxsiyyətinin formataşmasına yönəldilən peşə fəallığı başa düşülür (Qasımova, Mahmudova, 2003: 23).

Pedaqoji fəaliyyətin strukturunu aşağıdakı cəhətlər təşkil edir.

1. Pedaqoji fəaliyyətin məqsədi bu cəmiyyət üçün yararlı, hərtərəfli, ahəngdar inkişaf etmiş vətəndaşlar tərbiyə etməkdən ibarətdir.

2. Pedaqoji fəaliyyətin subyekti bilik verən, tərbiyə edən, istiqamət verən hesab olunur.

3. Pedaqoji fəaliyyətin obyekti və subyekti isə bilik, bacarıqlara yiyələnən, araşdıran, tədqiqiat aparan, tərbiyə olunan hesab edilir.

Müəllimin obyekti olan uşaq eyni zamanda subyektdir. Çünki uşaqlar da müəllimə təsir edirlər, onun işini təhlil edir və qiymətləndirirlər. Müəllimin səmərəli fəaliyyəti üçün başlıca amillərdən biri onun ixtisasa uyğun və ümumi biliklər sisteminə yiyələnməsidir. Bura ixtisas biliyi ilə bərabər pedaqoji, psixoloji, fəlsəfi, metodiki biliklər daxildir. Fəaliyyət prosesində həmin biliklər vəhdətdə birbirilə əlaqəli şəkildə istifadə olunur (Uşinski, 1953: 77-78).

Müəllim-şagird münasibətlərinin əsasında humanist prinsipin tələbləri dayanır. Onlar təlim prosesinin psixopedaqoji əsası kimi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın görkəmli psixoloqu, mərhum professor Əbdül Əlizadə bu məsələdən bəhs edərkən həm şəxsiyyət, həm də dialoji mədəniyyətin tələbləri barədə belə qənaətə gəlmişdir: "Obyekt mahiyyətcə şəxsiyyət deyil, insan deyil. İnsan ancaq subyekt kimi, şəxsiyyət kimi dialoqa girə bilər (Afonina, 2002: 21). Bu o deməkdir ki, dialoq məkanına daxil olmaq üçün:

- İnsan münasibətləri mənəvi ölçülərə söykənməlidir;
- Adamlar bir-birini şəxsiyyət kimi qavramalıdırlar;
- Dialoq birgə əməkdaşlıq, birgə yaradıcılıq aləmi olmalıdır".

Həqiqətən də insanlığın anlaşılan və qarşılıqlı başa düşülən mənəvi prinsipləri, həmçinin bütövlükdə insanın həyati normalar çərçivəsində fəaliyyətinin tənzimlənməsində həlledici rol oynayır (Xəlilov, 2005: 13-76-81). Düzgün qurulmuş müəllim-şagird münasibətləri şagirdlərin təlim marağının artmasında mühüm vasitədir. Müəllim-şagird münasibətlərinin düzgün qurulması, ilk növbədə, müəllimlərdə bir sıra qabiliyyətlərin olmasını zəruri tələb kimi qarşıya qoyur. Bu məsələ ilə bağlı müasir pedaqogikada da xeyli araşdırmalar aparılmış və nəticələrə gəlinmişdir. Xüsusən, müəllimin müasir dövr üçün xarakterik olan qabiliyyətləri son tədqiqatlarda ayrıca qeyd edilir (Kərimov, 2009: 10-12). Belə ki, pedaqoji qabiliyyətlər müəllimin keyfiyyətləridir və onlar yeddi qrupa ayrılır:

1) Təşkilatçılıq qabiliyyəti;
2) Təlim (öyrətmə) qabiliyyətləri;
3) Perseptiv qabiliyyətlər;
4) Kommunikativ (ünsiyyət) qabiliyyətlər;
5) Suqqestiv (təlqinedici) qabiliyyətlər;
6) Tədqiqatçılıq qabiliyyəti;
7) Elmi-idraki qabiliyyətlər.

Bu qabiliyyətlər zaman keçdikcə dəyişə, tələblərin sayı arta və ya azala bilər. Başlıca şərtlərdən biri isə bacarıqların zərurilik baxımından təsnif olunmamasıdır. Müəllim-şagird qarşılıqlı münasibətləri bir-birinə elə yönəlməlidir ki, onların qarşılıqlı anlaşmasını şərtləndirsin. Bu isə öz növbəsində davranışın qarşılıqlı korreksiyasına gətirir. Təlim şəxsiyyətlərarası münasibətlər vasitəsilə başlayır və bitir. Müəllim-şagird qarşılıqlı münasibətləri təlim və tərbiyə məsələlərinin həllində əsas rol oynayır. Təlim prosesində elə qarşılıqlı münasibətlərin yaradılması nəzərdə tutulur ki, burada hər iki tərəf qarşıya qoyulmuş məqsədə çata bilsin. Əməkdaşlığın əsasında bu prosesin iştirakçıları arasında pozitiv münasibətlərin saxlanması durur (Həsənov, Bəhmənova, 2009). Təlim o vaxt effektli alınır ki, müəllim şagirdin fəaliyyətinə məharətlə rəhbərlik edir. Birgə fəaliyyətə sıx şəkildə qoşulmuş şagirdin şəxsi keyfiyyətləri, əməliyyatlardakı müstəqilliyi bu cür əməkdaşlığın əsasını təşkil edir. Müəllim və şagird arasında münasibətlərin necə qurulacağı ünsiyyət və qarşılıqlı təsir vasitələrinin xarakterinə birbaşa təsir edir. Şagirdlər tərəfindən təcrübənin mənimsənilməsi şəxsi münasibətlər xaricində mümkün deyil. Məhz münasibətlər çərçivəsində şagird müəllimin qiymətləndirilməsini başa düşür. Həm də şagird özü də müəllimini qiymətləndirir. Müəllimə münasibət şagirdin uğurunu şərtləndirir. Pedaqoqa qarşı pozitiv münasibət təlimə marağı, şagirdlərin biliklərə yiyələnmə istəyini artırır. Bu zaman müəllim nəyin korreksiyaya ehtiyacı olduğunu, mənimsənildiyini və özünün nəyə əsaslanacağını müəyyənləşdirə bilir. Bu mənimsəmə prosesləri öz-özünə baş vermir (Zagvyazinskiy, 1982: 10). Formalaşan şagird şəxsiyyəti müəllimin dəstəyi nəticəsində digər insanların nəzər nöqtəsini, davranış və əməllərini nəzərə almağın

vacibliyini öyrənir. Şagirdin bütün şəxsi keyfiyyətlərinin nəzərə alınması əsasdır. Bu, təlimin tempini və keyfiyyətini dəyişməyə imkan verən şərtdir. Müəllimlə şagirdin əməkdaşlığı təkcə tədris metod və vasitələrinin tətbiqindən ibarət deyil. Burada mənəvi əlaqə olmalıdır (Nəsirov, Məmmədov, 1980: 11). Müəllim ötürdüyünün şagird tərəfindən qəbul edilməsinə, özününküləşdirməsinə şərait yaratmalıdır. Bu mənəvi əlaqə emosional, qiymətləndirici və iradi xarakter daşıyır. Yüksək qabiliyyətlərə malik müəllim təbii olaraq planlaşdırdığı pedaqoji prosesi yeni prinsiplərin tələbinə uyğun olaraq demokratik şəraitdə qurmağa çalışır. Belə şərait isə öz növbəsində şagird fəallığına imkan verir. Şagird müəllimin istiqamətverici tövsiyələri, göstərişləri əsasında potensial imkanlarını səfərbər edərək səmərəli fəaliyyət göstərir. Müəllim-şagird münasibətlərinin yüksək olması keyfiyyətli nəticələrin əldə olunması ilə müəyyənləşir. Bu isə bilavasitə real prosesdə meydana çıxır. Real proses həyata keçirilən pedaqoji prosesdir. Müəllim-şagird münasibətlərinin öyrətmə-öyrənmə mexanizmi məhz bu prosesdə meydana çıxır. Həm müəllimlər, həm də şagirdlər özlərinin fəaliyyət potensialını bu şəraitdə təzahür etdirirlər. Real proses müəllim-şagird tərəfdaşlığının bir müstəvidə olmasını, təlimin səmərəliliyi istiqamətinə yönəlməsini, hər iki tərəfin qarşılıqlı münasibətini tələb edir (Paşayev, Rüstəmov, 2007: 29-34-37). Yeni pedaqoji prosesdə öyrədən və öyrənən münasibətləri nə qədər əməkdaşlıq baxımından qiymətləndirilsə də, burada şagirdlərin fəallaşdırılması daha qabarıq nəzərə çarpır. Onlar müasir pedaqoji ədəbiyyatlarda qeyd edildiyi kimi, pedaqoji prosesdə subyekt kimi fəaliyyət göstərirlər. Təlim prosesində tədqiqatçılığa cəlb olunur, mövzu ətrafında araşdırmalar aparır, öyrəndiklərini tətbiq edir, müqayisə və təhlillər yolu ilə fakt və hadisələri məntiqi təfəkkür süzgəcindən keçirərək qiymətləndirirlər. Şagirdin təlim prosesindəki fəaliyyəti hər hansı deklorativ bilikləri imitasiya etmək, təkrarlamaq, yaxud onların tətbiqinə dair nümunələr hazırlayıb nümayiş etdirməklə bitmir (Danilov, 1969: 32). Şagirdlərin mühakimə yürütməsi, fikirləşməsi, müstəqil nəticə çıxarması – müasir dərsin atributlarıdır. Bütün bunlar isə şagirdlərin təlim prosesində məntiqi tapşırıqlar üzərində işləmələrini, yaradıcı fəaliyyət göstərmələrini tələb edir. Müasir psixopedaqoji araşdırmalar da məhz bu ideyanın müasir təhsil nəzəriyyəsi üçün aparıcı rol oynadığını aydın şəkildə göstərir. Müəllim və şagirdlərin fəaliyyətindəki özəlliklər onların arasındakı münasibətlərin yeni məzmunda qurulmasını diktə edir. Təbii ki, buna son dövr pedaqoji ədəbiyyatlarda göstərildiyi kimi, "əməkdaşlıq münasibəti", "əməkdaşlıq pedaqogikası" demək olar. Mahiyyət etibarı ilə bu münasibətlərin əsasında qarşılıqlı anlaşma və demokratik xarakterli ünsiyyət, bir sözlə, dialoji mədəniyyət dayanır. Hər şeydən əvvəl vacib olan problemin həll edilməsidir. Müəllim və şagirdlər bütün fəaliyyətlərini bu məqsədə yönəldirlər (Babanskiy, 1982: 106). Məqsəd öyrədən və öyrənən qüvvələri birləşdirir. Müəllim-şagird münasibətlərindəki qarşılıqlı fəaliyyət mahiyyət etibarı ilə müasir xarakterli yeni bir təlim şəraitinin meydana çıxması ilə müşayiət olunur. Bu şəraitdə öyrənən xarakterini dəyişir. Yeni təhsil quruculuğunda bu cür yanaşma fəal öyrənmə adlanır. O, şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatlarında məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmədir. Fəal öyrənmə eyni zamanda koqnitiv (idraki) xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışları, kəşf xarakterli öyrənməni əhatə edən, çoxsaylı məqsədləri yerinə yetirməyə imkan verən faydalı bir prosesdir. Bu prosesin faydalılığı şagirdlərin idrak fəallığının yüksəlməsində, problemlərin həlli yolunun tapılması üçün axtarışların aparılmasında, kəşflərin edilməsində özünü göstərir. Hər bir nailiyyət özünün müsbət nəticələri ilə xüsusi əhvali-ruhiyyə yaradır və şagirdlərin yüksək sevincinə səbəb olur. Onlar da təlim marağının artmasına təsir göstərir. Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması təbii öyrənmə prosesinin formalaşması ilə nəticələnir. Bu, ənənəvi təlim prosesinə məxsus amirlik ab-havasının əməkdaşlıqla əvəz olunmasına gətirib çıxarır (Podlasyy, 2000: 41-43). Bu zaman müəllim və şagird arasında işgüzar bir əlaqə formalaşır. Belə şəraitdə hər kəs təbii olaraq qarşısına qoyduğu məqsəd üçün çalışır. Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması həm də ənənəvi olaraq məktəblə valideyn arasında əlaqələrin yeni məzmunda qurulmasına rəvac verir. Valideynlər məktəbdə təlim prosesi və övladlarının gündəlik təlim fəaliyyəti ilə daha yaxından maraqlanmağa, onların təhsil prosesinə nüfuz etməyə imkan tapırlar. Müəllimlərin valideynlərlə əlaqələrinin yeni xətləri yaranır. Valideynlər uşaqlarının təlim fəaliyyətinin iştirakçısına çevrilir,

onların problemləri ilə daha yaxından tanış ola bilirlər. Müəllim-şagird münasibətləri təlim prosesinin barometridir. Onun vasitəsilə müəllim və şagird fəaliyyəti barədə, eləcə də öyrənmə işinin xarakteri haqqında tam məlumat almaq mümkündür. Şagirdlərinin təlim marağına səbəb olan müəllimlər kommunikativ imkanlarından istifadə edirlər (İbrahimov, 2010: 7-82). Belə ki, şagird kollektivini təlim prosesinə hazırlamaq, onu ümumi fəaliyyətin məntiqinə tabe etmək üçün ən yaxşı vasitə kommunikativ (ünsiyyət) bacarıqlardır. Müəllim-şagird münasibətləri zamanı müəllimin fəaliyyətində aparıcı keyfiyyətlərdən biri də tədqiqatçılıqdır. Müəllim reallaşdıracağı standartlara əsaslanaraq məqsədlərini müəyyənləşdirir. Onları həyata keçirmək üçün fəaliyyətini layihələndirir. Konkret plan qurur (Volkov, 1968: 121).

Təkliflər.

1. Pedaqogikanın əsası özəyi olan müəllimlik peşəsində müəllim - şagird münasibətlərinin ən prespektiv inkişaf yolu müəllim seçimində yerli kadrlara üstünlük verilməsi nəzərdə tutulmalıdır. Bu yerli sakinlərin öz xasiyyətlərinə daha çox bələd olmasından irəli gəlir.
2. Müəllim-şagird-valideyn əlaqəsi qurularaq valideynlər tez-tez tədris prosesinə cəlb olunmalıdır.
3. Təhsil müəssisələrində birgə fəaliyyət proqramları qəbul olunmalıdır.

Nəticə

Əsas real proses pedaqoji prosesdir ki, bu zaman müəllim – şagird münasibətləri formalaşır. Bu formalaşmış prosesdə şagirdlərin inkişafı üçün əsas nəticələr əldə olunmuş olur. Müəllimlər əsas təşkilatı və elmi-idraki qabiliyyətləri şagirdlərə aşılayır. İnsanı münasibətlər əsasında bir birini qavramalarını təmin etmiş olurlar.

Ədəbiyyat

1. Mərdanov, M.C. (2009). Azərbaycan təhsili yeni uinkişaf mərhələsində. Bakı: Çaşıoğlu.
2. Yakimanskaya, I.YA. (1979). Razvivayushcheye obucheniye. M., s.69-84.
3. Əlizadə, H.Ə. (1998). Sosial pedaqogikanın aktual məsələləri. Bakı.
4. Makhmutov, M.I. (1972). Teoriya i praktika problemnogo obucheniya. Kazan.
5. Hüseynzadə, R.L. (1997). Təhsilin humanistləşdirilməsi və demokratikləşdirilməsi. Bakı.
6. Ağayev, M.H. (2011). Müqayisəli pedaqogika (Bakalavr təhsili üçün proqram). Bakı: ADPU.
7. Qasımova, L., Mahmudova, R. (2003). Pedaqogika. Bakı: Bakı Dövlət Universiteti, 23 s.
8. Uşinski, K.D. (1953). Seçilmiş pedaqoji əsərləri. Bakı, s.77-78.
9. Afonina, T.M. (2002). Pedagogika. Kurs lektsiy i seminarski. Feniks, Rostov-na-Donu, 21 s.
10. Xəlilov, S.S. (2005). Təhsil, təlim, tərbiyə. Bakı: Azərbaycan Universiteti, s.13-76-81.
11. Kərimov, Y.Ş. (2009). Pedaqoji tədqiqat metodları. Bakı: Azərnəşr, s.10-12.
12. Həsənov, M.M., Bəhmənova, C. (2009). İbtidai siniflərdə fəal və interaktiv metodlardan istifadənin nəzəri-praktik məsələləri. (Metodik vəsait). Bakı: ADPU.
13. Zagvyazinskiy, V.I. (1982). Metodologiya i metodika didaktiches-Kogo issledovaniya. M.: Pedagogika, 10 s.
14. Nəsirov, V.N., Məmmədov, Ə.B. (1980). Elmi idrakın metod. Bakı: Maarif, 11 s.
15. Paşayev, Ə.X., Rüstəmov, F.A. (2007). Pedaqogika. Bakı: Nurlan, s.29-34-37.
16. Danilov, M.A. (1969). Osnovnyye problemy metodologii i metodiki pedagogicheskikh issledovaniy. «Sovetskaya pedagogika». T.5, 32 s.
17. Babanskiy, YU.K. (1982). Problemy povysheniya effektivnosti pedagogicheskikh issledovaniy (Didakticheskiy aspekt). M.: Pedagogika, 106 s.
18. Podlasyy, I.Y. (2000). Pedagogika nachal'noy shkoly. M.: Gumani-tarnyy tsentr. VLADOS, s.41-43.
19. İbrahimov, F.N. (2010). Ümumi pedaqogikadan mühazirələr. Bakı: Mütərcim, s.7-82.
20. Volkov, G.N. (1968). Sotsiologiya nauki. M.: Mysl, 121 s.

Göndərilib: 21.04.2023 Qəbul edilib: 17.06.2023